*AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1*
*Səhifə: 118-124*
*https://doi.org/10.59849/2663-4368.2026.1.118*

*ISSN 2663-4368*
*E-ISSN 2709-2699*

# Türk milli ədəbiyyatının formalaşmasında M.Əmin Yurdaqul poeziyasının rolu

**Vüqar Əhmədli**
AMEA Gəncə Bölməsi
E-mail: ahmedli9420@gmail.com
ORCID iD: https://orcid.org/0009-0007-7471-6887

*«Ey kardaşlar uyanın,*
*Şu Türklük'e can verin»*

***Xülasə.*** Bu məqaləmizdə ömrünü millətinə həsr etmiş böyük türk şairi M.Əmin Yurdaqulun poeziya dünyasına nəzər yetirdik. Məqaləmizdə şairin türk millətinə ruh yüksəkliyi verən şeirlərinə toxunulmuş və tədqiqi edilmişdir. Digər tərəfdən məqalədə şairin keçdiyi ömür yoluna və onun milliyətçi şair kimi formalaşmasının səbəblərinədə toxunulmuşdur.
Bildiyiniz kimi şairin türk milli ədəbiyyatında özünə məxsus yeri var. Bunun səbəbidir ki, Yurdaqulun şeirlərinə nəzər saldıqda hərzaman millətinin çətin günlərində yanında olduğunu, onlara ruh yüksəkliyi aşılayan şeirlər yazmasıyla yanaşı birbaşa cəbhə meydanlarına gedərək millətinə millətlər içində adi bir millət olmadığını xatırlatmaq kimi xüsusiyyəti olduğunu görürük. Təbii ki, bir zamanlar qitələri ipək parçası kimi kəsib biçən imparatorluğun övladlarını çətin sınaqlar dövründə mənəvi cəhətdən tək başına buraxmaq bir şairə yaraşmaz idi. Şair türk ədəbiyyatında səsini ilk dəfə 1897-ci ildə Türk-Yunan müharibəsi vaxtı eşitdirmişdir. Türkçə şeirlər dərhal həmin dövrə bir səs-səda salmış, bir çox təqibçi qazanmaqla yanaşı, bir o qədər də tənqidçilər qazanmışdır. 1899-cu ildə "Türkcə şeirlər" kitabı çap edilərkən Tənzimat şairləri tərəfindən sitayişli bir dil ilə yazılmış bir çox tərifə layiq yazılar yazılmışdı. Osmanlının çətin sınaqları dövründə şair cuşa gələrək düşman qarşısında bağıraraq tez-tez türk olduğunu və türk milliyətçiliyini müdafiə etdiyini vurğulayırdı. Ona görə türk milləti öz vətənində bir qərib kimi yaşayır, lazım olan dəyəri görmürdü. Buna görədə onun şeirlərində yalnız türk irqini ön planda tutduğunu görürük.
Yurdaqul şeirlərində xüsusi olaraq dövrün şərtlərindən irəli gələrən milliyətçi, sosial düşüncə və duyğuları dilə gətirir. Şair şeirlərində estetik qayğının yerinə daha çox nələrisə öyrətmək qayəsini ön planda tutur. Şairin şeirlərində məzmuna və strurktur xüsusiyyətlərinə nəzər saldıqda türk ədəbiyyatı tarixində Milli ədəbiyyat cərəyanının başlanılmasında ilk sıralarda olduğunu görürük. Məqaləmizdə şeirlərini qafiyələri itməsin deyə orijinal halını qoruyub saxladıq.
***Açar sözlər:*** *Türkçülük, milli ədəbiyyat, milli birlik, milli kimlik, poeziya*

**Məqalə tarixçəsi:** göndərilib – 24.04.2026; qəbul edilib – 20.05.2026

# The role of M. Emin Yurdaqul's poetry in the formation of Turkish national literature

**Vugar Ahmadli**

***Abstract.*** This article explores the poetic world of Mehmet Emin Yurdakul, a prominent Turkish poet who dedicated his life to his nation. It analyses the works that contributed to the formation and strengthening of Turkish national consciousness, identifying the main thematic and ideological characteristics of his literary output. Additionally, it explores Yurdakul's life and the social, political and spiritual factors that shaped his identity as a nationalist poet.
Mehmet Emin Yurdakul occupies a unique position in Turkish national literature. His works demonstrate his commitment to preserving national solidarity and strengthening the morale of the Turkish people during some of the most challenging periods in their history. He contributed not only through his poetry, but also by

visiting battlefronts and reminding the Turkish nation of its rich historical heritage, cultural values and national identity. In this respect, his activities extended beyond literature, playing a significant role in promoting nationalist ideals and patriotic sentiment.
During a period when the Ottoman Empire was facing serious political and military challenges, Yurdakul saw the preservation of national consciousness and spiritual unity as one of his main duties. He first gained recognition in Turkish literature during the Greco-Turkish War of 1897. His poems, later compiled in a collection titled Turkish Poems (Türkçe Şiirler), attracted widespread attention, earning him both admirers and critics. When the collection was published in 1899, it received favourable reviews and praise from several poets and intellectuals associated with the Tanzimat literary movement. Amidst the severe trials facing the Ottoman state, Yurdakul emerged as a defender of Turkish national identity and nationalist thought. Through his writing, he emphasised that the Turkish people had not received the recognition or value they deserved, and so strengthening national consciousness became one of his main objectives. National and social ideas shaped by the political and social conditions of the period occupy a central place in Yurdakul's poetry. Rather than prioritizing aesthetic concerns, the poet focused on educational, patriotic, and socially conscious themes. In terms of both content and form, his literary work made a significant contribution to the emergence and development of the National Literature movement in Turkish literary history. By presenting the poet's poems in their original form, the article preserves their poetic features.
***Keywords:*** *Turkism, National literature, National unity, National identity, Poetry*

**Article history:** received – 24.04.2026; accepted − 20.05.2026

## Giriş / *Introduction*

Məlum olduğu kimi türk milli ədəbiyyatının formalaşmasında Yurdaqulun çox böyük əməyi var. XIX əsrin son illərində milliyyətçilik imanını şeir meydanına nəql edərək, türk ədəbiyyatında açıq bir şəkildə türkçülüyü, ilk dəfə bir sənət ideası halına gətirən türk şairi: M.Əmin Yurdaquldur (Banarlı, s.1083). Onun şeirlərində milliyyətçi görüşləri müdafiə etməsi, milli ədəbiyyat cərəyanın formalaşmasına və daha da geniş kütlələrə gətirib çıxardıb. Şair ədəbiyyat dünyasına Sərvəti-fünun ədəbi cərəyanı ilə başlamasına rəğmən ilk kitabı "Türkcə Şeirlər" ilə böyük rəğbət qazanır. Bildiyiniz kimi Sərvəti-fünun yazarları sənət sənət üçündür anlayışını mənimsəmiş və lüğətlərdən heçkəsin bilmədiyi kəlimələri taparaq vəya özlərindən uydurduqları kəlimələri istifadə edərək xalq tərəfindən anlaşılmaz bir dildən istifadə etmişlərdir. Yurdaqul isə bunu görüb bir müddət sonra sənət xalq üçündür anlayışına yönəlmiş və daha anlaşılır, sadə bir türkçədən istifadə etmişdir. Məhz anlaşılan bir dil və sadə türkçə istifadə etməsi onu türk ədəbiyyatına xalqın səsini gətirən şair kimi həkk etmişdir. Yeni türkcə şeirlərində sadə və təbii bir "xalq dili" istifadə etməyi hədəf edən şair, Sərvəti-fünun cərəyanından ağıl və şüurla ayrılmış idi. Təkcə şəhər əhalisinin deyil, Anadolu və Ruməli kəndlisinin həyat və izdirabları da münəvvər türk şeirlərində əvvəlcə onun qələmi ilə səmimi bir şeir mövzusu olmuşdur [Banarlı: 1977, s.1085].Şeirlərində türkçülük cərəyanını müdafiə edən şair bu istiqamətdə misralar qələmə almışdır.

Türkü ərəb və fars yuxusundan ilk oyandıran, türkə türklüyünü xatırladan M.Əmin Yurdaquldur [Tevetoğlu: 1988, s.92].

Həmin dövrdə niyə milliyətçiliyə və milli ədəbiyyata ehtiyyac hiss edildiyini Ömər Seyfəddin "M.Əmin" şeirində izah edirdi:

Bütün Turan karanlıkta şuursuz bir taş gibi
Uyuyordu...Lisan yoktu, sanat yoktu, zevk yoktu:
Olan hərşey türk değildi, türk ruhuna bir oktu..
Bilmiyordu kimse nedir bu uykunun sebebi!

Arap, Acem afyoncusu türk dilinde pek çoktu;
Türklük yoktu! Tarih denilen hailenin içinde
Sönüyordu bir milletin on bin yıllık varlığı,
İniyordu şan üstüne kan üstünde bir perde,
Kalmamıştı hiçbir türkün milletine yarlığı.
[Tevetoğlu: 1988, s.44].

Şair Ziya Göyalp "Türkçülyün əsasları" adlı əsərində türklərdə, vətən əxlaqının çox qüv-

vətli olduğunu, hər türkün vətəni üçün həyatını və ən sevdiyi şeylərini fəda etməkdən qorxmadıqlarını vurğulamışdır [Gökalp: 1990, s. 152].

Ziya Göyalp, türkçülük uğrunda bu qədər çalışan şair üçün "Qızılalma" adlı əsərində qısa bir mənzum parçanın ona ithaf edərək deyirdi:

Altaya çıkarak Tanrıya eren,
Oğuz Han ağzından yasayı deren,
Erfilin sazını kapıb getiren,
Kavmine hem kitap, hem rübab veren,
Ey Turan yalvacı! Size bir bağban,
Bu Kızılelmayı eder armağan!
[Tevetoğlu: 1988, s.39].

M.Əmin vətəninə, millətinə, dilinə bağlı bir şairdir. Vətənsevərlik mövzusunda yazdığı hər şeirin misralarında vətənə bəslənən sevgi onun uğrunda lazım gələrsə canının verebilən övladlardan bəhs edir.

Əmin, çox sevdiyi millətini, ən dərin keçmişi ilə tanıyırdı. Onun aşağıdakı misraları bunu deməmizə əsas verir.

Ey milletim, sen bundan tamam beş bin yıl evvel
Altaylarda yaşarken
Tanrım sana dedi ki: "Ey türk ırkı, bu yerden
Güneşlere süzülen kartal gibi uç, yüksel!
Senin, her bir kuvveti, ram edici ellerin
Bütün mağrur başlara yıldırımlar saçacak,
Sana Çin'in İran'ın, Hind'in, Mısır'ın her yerin
Er istiyen tahtları kollarını açacak.
[Banarlı: 1977, s.1087].

Milli şairin həm Türkiyə də həmdə dünyadakı türklər arasında ses salan və geniş əks-səda doğuran əsərləri, yerli fikir və sənət adamları qədər, Vambery, Gibb, Horn, Minorsky, Giese vs. kimi məşhur Şərqçilər alimləri başda olmaqla, xarici tədqiqatçılar və ziyalılar tərəfindən də böyük maraqla qarşılanmışdır.

Türk ədəbiyyatında və türk düşüncə dünyasında milli bir cərəyanının formalaşmasında, türkçülük yolunda, M.Əminin liderlik etdiyi düşüncəsi yerli və xarici alimlərlə yanaşı hətta ona muxalif olanlarında qəbul etdiyi bir məsələ olmuşdur.

Ünlü Macar türkoloq A.Vambrey də, Emin bəyə yazdığı bir məktubda, "Türkcə şeirlər" şairi kimi şəxslər meydana çıxacaq olarsa, türk dilinin uca bir zirvəyə çatacağını söyləyirdi [Tevetoğlu: 1988, s.125].

Şairə muxalif olan yazıçı Falih Rıfkı Atay xatirələrində yazırdı:

O dövrdə A.Həmidin, C.Şəhabəddinin və T.Fikrətin ərəb və fars kəlimələri və tərkibləriylə ahəngli fəqət yad bir dillə yazdıqları bir dövrdə, ilk dəfə o ahəngsiz bir əda fəqət milli cəhd ilə Türkcə misraları yazdı. O vaxtan hardasa yarım əsrdən bəri məfkurəsindən ayrılmayan bu böyük türk şairi qarşımızda olduğu kimi, "İnqilab və ideal, mənbələrimizdə də ən yerli filizlərdən biri idi" [Tevetoğlu: 1988, s.91-92].

Şairin sənətinin və fikir dünyasının formalaşmasında ailəsinin çox böyük rolu olmuşdur. Yurdaqul hələ uşaq ikən "Batdal Qazi və Kərəm ilə Əsli" xalq ədəbiyyatı nümunələri ilə tanış olur. Daha sonra Namiq Kamalın "Əvrak-ı Pərişan" adlı əsərini oxuyar. M.Əmin ötən illəri xatırlayaraq deyirdi ki; "Yaşadığmız dam ağ günlərlə yanaşı qara günləri də gördü. Xalqın izdırabını bu damın altında eşitdim. Bu damın altında anamın xalq laylaları böyüdüyü kimi, bu damın altında xalq nəsihətləri ilə yetişdim və anladım ki, xalq öz həyatını, ruhunu, eşqini, izdırablarını öz dili ilə başa salacaq kitablara möhtacdır [Tevetoğlu: 1988, s.6].

M.Əminin sənətinə və fikir həyatına təsir edən şəxslərdən biri də Şeyx Cəmaləddin Əfganidir. Şair hələ dövlət idarəsində məmur işləyərkən Əfganinin təşkil etdiyi söhbətlərə qatılar, bu söhbətlərdə Müsəlmanların milli şüurunu gücləndirmələrinin vacib olduğu vurğulanardı. "Əmin, Şeyxi özünə bir yol göstərici bilirdi [Banarlı: 1977, s.1084]. Milli şair bu haqqda bele deyirdi: Məni o yoğurmuşdur. Egər ruhların əbədiyyət və ölməzliyi varsa deyə bilərəm ki, O, ətlərini və sümüklərini Maçqa məzarlığının torpaqlarına buraxmış isə, ruhunu da mənə yadigar etmişdir: Cəmaləddinin ruhu məndə yaşayır" [Tevetoğlu: 1988, s.12]. Əfganinin xüsusi ilə fədakarlıq, sözündə durmaq, ölümdən qorxmamaq, qəlb qüvvəti, Müsəlmanların əsarətdən qurtularaq azadlıqlarına qovuşması və yüksəldilməsi vs. fikirlərindən çox təsirlənən Əmin, bunları duyğu və düşüncə fikir dünyasına nəqş edər. "Milli şair, Şeyxin tövsiyyələrini xüsusi ilə türk millətinə tətbiq edərək, millətin dil və ədəbiyyat ehtiyyacını, azadlığını, mədəniyyətcə geri qalmışlığını fikirləşir və bunların

təmin edilməsi, düzəldilməsi yolunda fədakarlıqla işləməyi qururdu [Tevetoğlu: 1988, s.12].”

Beləliklə şair Salih bəy və anası Müzəyyən xanımdan aldığı xalqçılıq, milliyətçilik düşüncəsi, vətən şairi Namiq Kamaldan alığı inqilabçı ruh, Şeyx Cəmaləddindən aldığı yenilikçi görüşlərlə digər Osmanlı şairlərindən ayrılan Yurdaqulun bu ifadələri vacibdir:

“Mən xalqçı və milliyətçi idealımla Osmanlı şeir və ədəbiyyatından iki yolda ayrıldım.

1. Dil və vəzinlə
2. Məna və mövzu ilə

Yurdaqul qələmini vətəninə və cəmiyyətinə bəxş etmiş, özünün dediyi kimi “əlindəki üç telli saz ilə dərtlililərin gözyaşını silməyə” [Yeni Adam: 1943, 6-11] çalışmışdır.

Yurdaqul şeirlərini cəmiyyətinə həsr etmişdir. Buna görə də şairliyi, özünə ehtiyyac hiss edilən bir vaxta irəli çıxdı.

Şairə görə həqiqi türk ədəbiyyatı xalq ədəbiyyatıdır. Ona görə, milli ədəbiyyatın və milli şeirin ortaya çıxması üçün əsərlərin xalqın dili ilə yazılması, yurdun gözəlliklərini, böyüklərini, əcdadlarının əfsanələrini, xatirələrini, eşqlərini, ələmlərini, ümid və röyalarını izah etmək olması lazımdır [Tuncer: 1994, s.124].

Şeirlərinin bir çoxunu 1914-1921-ci illər arasında yazdı. Şair Atatürk tərəfindən “Türklərin mübarək atası” olaraq adlandırılmış və böyük bir hörmətlə qarşılanmışdır [Şenal: 2019, s.18]. “Sənətimin tək qayəsi xalqın şairi olabilmək” deyən Mehmet Emin Yurdaqulun əsərləri; Türklük, Türkcülük, Turan, Milliyətçilik, Vətən, Millət, Anadolu, Milli Mücadələ, Cəng, Azadlıq ve İnqilabçılıq fikirləriylə doludur [Eraslan və vb.: 2023, s. 75].

Şairin şeir macərasının bir qismi 1897-ci ildə Türk-Yunan müharibəsi əsnasında bir qismi isə 1898-də əvvəlcə jurnallarda yayımladığı sonra “Türkcə Şeirlər” kitabında bir araya getirdiyi şeirlər ilə başlayır. Əsir qazetində yayımlandıqdan sonra bu kitaba girən “Cəngə Gedərkən” adlı şeirində “Mən bir türkəm, dinim, cinsim uludur” [Yurdakul: 1979, s.110] deyərək kimliyini türk olaraq açıq bir şəkildə və qürurla söyləyən ilk şairdir. Buna görə ona türk şairi ünvanı verilmişdir. O vaxta qədər türk sözü bir şəxsiyyət elementi olaraq istifadə edilmir, türklər özlərini təqdim edərkən Osmanlıyam, müsəlmanam deyərlərdi.

M.Əmin Yurdaqulun şeirləri müharibə dövründə cəphədə əskərlər tərəfindən oxunur və bilinirdi. Onun şeirləri oxunduqca əskər çoşurdu. “türk övladı evdə durmaz gedərəm” misraların təkrarlayıb xəndəklərdən hücuma keçirdilər. Şeirləri və şeir kitabları minlərcə nüsxə çap edilib əskərlərə paylanırdı. Təkcə “Dan səsləri” kitabından iyirmi min nüsxə çap edilib paylanmışdır.

Türklərə xas olan qəhramanlıq mövzusu, milli şair M.Əminin birçox şeirində yer almışdır. “Anadolu’dan Bir Səs yaxud Cəngə Gedərkən”, “Yunan Sərhəddini Keçərkən”, “Ya Qazi Ol, Ya Şəhid”, “İrqimin Türküsü”, “Salam Sənə”, “Ey Türk Oyan”, “Aç Bağrını Biz Gəldik”, “Tiriqala Qalasına Bayraq Ucaltdıqdan Sonra”, “Bizə Deyirlər Ki”, “Haqqaniyyət”, “Ordunun Dastanı”, “Orduya Salam”, “Mustafa Kamal və Zafər”, “İstiqlal Dastanı”, “Xilaskara”, “Abidə” şeirlərində ümumi olaraq işlənən mövzular türk ordusu və türk ordusunun qəhramanlıq və cəsarətidir.

Yurdaqul şeirlərində türk millətinin səsi kimi davranırdı. Onun şeir həyatına başladığı “Türkcə Şeirlər” adlı kitabının ilk şeiri “Biz necə şeir istəyirik?” idi. Bu şeir o vaxta qədərki şeir anlayışına bir reaksiya şeiri idi və Əminin, şeir anlayışını ortaya qoyan ən vacib şeirlərdən biri idi.

“Köroğlu” ne? Anadolu dağlarında görünen,
Hep evleri, yapıları çamurlara bürünen,
Köycüklerde, rencberlerin yurtlarında okunur:
Bir kitap ki ya bir yetim keçisini çaldırtır,
Ya bir çiftçi çocuğunu ıssız dağa kaldırtır,
Öyle şeyler belletir ki akıllara dokunur.”

[Kolcu ve b.: 2007, s.29].

Vətəninin yaşanan sıxıntılı vəziyyəti milləti ilə yaşayan, çəkilən ağrıları ürəyində hiss edən Milli Şair, bu şeirdə əsil şeirin nece olmalı olduğunu dilə gətirir. Şairin istədiyi şeir, şehidlərin al qanıyla yazılmalı, türk millətinin səsi olmalıdır. Bu şeirdə, kəndlərində palçıq içində yaşayan Anadolu insanı, əkin biçən gənc qızlar və odun kəsən analar olmalıdır. Göründüyü kimi, M.Əmin şeirdə sosial faydayı ilk sırada tuturdu.

Şairin şeirlərinə nəzər yetirdikdə onun şeirlərinin çoxunun mövzu baxımından qəhramanlıqla əlaqəli olduğu görülür. Qəhramanlıqla bağlı şeirlərinin mövzularını aşağdakı kimi sıralaya bilərik;

| | |
|---|---|
| Ümumi olaraq qəhramanlıq | Türk Yunan Müharibəsi |
| Keçmiş dövrə aid qəhramanlıqlar | I. Dünya Müharibəsi |
| Yaşanan dövrə aid qəhramanlıqlar | Qurtuluş Müharibəsi |

Tarixə nəzər yetirdikdə türk xalqının necə qəhraman, cəsur, igid bir xalq olduğu görülür. "İrqimin Türküsü" şeirində milli şair bunu bir daha vurğulayaraq, fikirlərini bu misralarla ifadə edər.

Eğiliniz ey şerefler, ey şanlar,
Ey ırklara altın destan yazanlar!
Biz devlerin, fillerin
Diz çöktüğü kuvvetiz
Eski, yeni dillerin
Anlattığı milletiz
[Uçman: 2023, s.124].

Şair digər bir şeiri olan "Salam Sənə" şeirində türk millətinin tarixdə yaşadığı qəhramanlıqlarla dolu səhifəyə yer vermişdir.

Senin oğlun büyük ruhlu Gazi Orhan
Dağı taşı titretici bir rüzgârdı
Turgut Alp'ın Kara-Teke'n Akça-Koca'n
Bir sert deniz üstündeki dalgalardı
[Uçman: 2023, s.130].

"Ey Türk Oyan" şeirində şair, türklərin İslamdan evvəl necə qüdrətli, qəhraman, cəsur bir xalq olduğundan bəhs edər.

Osmanlının son dövrlərində ard-arda yaşadığı məğlubiyyətlər Trablusqərb, Balkan müharibələri xalqın həyatını, vəziyyətini sarsmış, insanlar da bu vəziyyətdən psixolojik olaraq təsir görmüşdür. Müharibə eyni zamanda fəsadları, fəlakətləri ilə onların həyatına girmişdir. Şair, bu müharibənin hər şeyə rəğmən qısa vaxta bitəcəyinə bütün könlü ilə inanır.

Sen her yerde fütuhat türküleri çağırdın,
Kara Hunlar, Oğuzlar
Atillalar, Cengizler, Timurlenkler, Yavuzlar
Senin geniş göğsünü kabarttıran ecdadın
[Uçman: 2023, s.149].

Türk anası oğlunu qəhraman bir ruhda böyüdərək onu vətən, millət üçün "igid ər" kimi yetişdirir. Vətənin bu çətin günündə oğlunu vətəni, milləti qorumaq üçün gözlərini qırpmadan müharibəyə göndərir. Ananın övladından gözləntisi çoxdur. Onlardan bu tapşırığı müvəffəqiyyətlə yerinə yetirməyi, vətənə olan borclarını şərəflə ödəməklərini istəyir.

"Haydi, yavrum, kendine sen de yiğit er dedir
Büyüdüğün gaziler ocağına can getir
O cenkleri kazan ki, senin büyük türk adın
Yedi-iklim dört bucak içer sine ün salsın
Beş yüz yıllık ecdadın
Kabirlerde titreyen kemikleri öç alsın"
[Uçman: 2023, s.149].

1915-ci ildə başlayan türkün yaddaşında silinməyəcək və qürurverici iz olaraq qalan Çanaqqala müharibəsinə ithafən yazdığı "Ordunun Dastanı" şeirində şair qəhramanlıq mövzusundan əlavə vətən, millət, azadlıq, tarix mövzularına yer vermişdir.

Zira bu yer en fedakâr bir milletin
Kahramanlık, şeref, namus kal'esidir,
Bur'da her ses o ilahi hürriyetin
Asırlara bizi söyler nağmesidir"
[Uçman: 2023, s.195].

Türkçə Şeirlər kitabında yer alan "Anadoludan bir səs yaxud Cəngə gedərkən" şeirinin ilk misrasında türk sözünün istifadə edilməsi, türk poeziyasında yeni bir anlayışın göstəricisidir. Çünki, türk şeirində milliyətçilik və türkçülük konsepsiyasını ilk dəfə bu qədər açıq-aydın olaraq görürük. "Gənc Yurdquldan əvvəl, türkçü olmaqla bərabər milli duyğuları güclü bir şair olan Muallim Naci, Ertoğrul Bəy Gazi mənzum əsərində, Mən ki, bir türkəm unutmaram Cabəri misrasında türk sözünü istifadə etmişdir; ancaq onun ki, davamı gəlməyən bir toxunuş olaraq qalmışdır" [Gülendam: 2011, s.131].

Şeirdə şair səmimi bir əda və xalq türkçəsi ilə türk millətinin hisslərinin dilə gətirdiyi üçün, bütün türk ellərində böyük bir maraq ilə qarşılanmışdır. Onun türk övladı evdə durmaz gedərəm misrası, yüzlərcə səhifə öyrədiləbiləcək türkün vacib bir xüsusiyyətini təsirli bir şəkildə ifadə edər.

“Bu topraklar ecdadımın ocağı;
Evim, köyüm hep bu yerin bucağı;
İşte vatan, işte Tanrı kucağı!
Ata yurdun, evlat bozmaz, giderim!
Tanrım şahit, duracağım sözümde;
Milletimin sevgileri özümde;
Vatanımdan başka şey yok gözümde.
Yâr yatağın düşman almaz, giderim!
Ak gömlekle gözyaşımı silerim;
Kara taşla bıçağımı bilerim;
Vatanımçin yücelikler dilerim.
Bu dünyada kimse kalmaz, giderim!”
[Uçman: 2023, s.31].

“Yunan Sərhəddini Keçərkən” şeirində türklük yaddaşı, milli duyğular, din və vətən mövzuları ön plana çıxarılır:

“En güzel yüz bize çirkin; biz severiz türk yüzü
En iyi öz bize fenâ; biz isteriz türk özü.
Milletimiz alkışlarız; anıldıkça türk sözü.
Biz Türkler’iz; biz, bu kanla, biz bu adla yaşarız!,”
[Uçman: 2023, s.124].

Şairə görə, türk milləti özü, sözü və qanıyla bir bütün təşkil edir. Şeirdə, türk millətinin bir bütün halında yansımasını görürük. Çünki, türklərə türklərdən başqa kimsənin fayda gətirməyəcəyi düşüncəsi hakim idi. Dönəmin siyasi vəziyyəti ələ alındığında, şairin haklı olduğu görülməkdədir.

“O ninnidir: Yine bugün bize söyler Söğüd’ü.
O dillerdir: Yine bugün bize verir öğüdü.
Milletimiz çocuk idi; bu seslerle büyüdü.
Biz Türkler’iz; düşmanlara yalın kılıç koşarız!
Hangi Türk’tür gerdenine urgan, kement urdurur?
Hangi Türk’tür mescidine çanlı kule kurdurur?
Milletimiz köle olmaz; böyle günde kim durur?
Biz Türkler’iz; (Kızılırmak) olur böyle taşarız!”
[Uçman: 2023, s.24].

Şair, bu şeirində türk millətinin xarakterini dilə gətirir. Burada, türklərin azadlıqlarına aşiq olduqlarını söyləyir. türk millətinin tarix boyu qul ediləbilmədiklərini, bundan sonra da əsir olmayacaqlarını ifadə edir.

“Tiriqala Qalasına Bayraq Asdıqdan Sonra” şeirində qəhraman, igid türk əsgərindən bəhs edilir. Şair, Tiriqala Qalasının bir zamanlar türklərin olduğunu dilə gətirir.

“Eskilerin bu yerlerdi, bu illerdi durağı,
İşte bugün yine yaktık; eski, sönük çerağı,
Bu kal’aya biz de diktik ulu devlet bayrağı.
Koçyiğitler! Atina’da haydin bir su içelim!
[Uçman: 2023, s.25].

Üç bənddən ibarət bu şeirdə şair hər bəndin sonuncu misrasında türk əsgəri üçün qoç igidlər ifadəsini işlədir. Sonuncu bənddə o, şəhidlik mövzusuna "qəlbində şəhid qəbri qazanlar nə bəxtiyardırlar" misrası ilə toxunur.

“Tarihlere yiğit adın yazdırana ne mutlu!
Yüreklere şehid kabrin kazdırana ne mutlu!
Bu devletin büyüklüğün artırana ne mutlu!
Koç yiğitler! Ün alalım, serimizden geçelim!”
[Uçman: 2023, s.35].

Şəhadət və vətən sevgisini “Şəhid yaxud Osmanın ürəyi” adlı şeirində işləyən şairin şeiri məzmun baxımından da digər şeirlərdən heç də geri qalmır.

“Ey güzel köy! Viran olma, sakın şu genç yaşında;
Dağlarında tâze otlar, penbe güller biterken.
Ey çobanlar! Beni anın, coşkun sular başında;
Yaprakların arasında yavru bir kuş öterken.
Şair, şiirin son kısmında vatana seslenir:
“Ey Türk ili, ey vatan! Sen her bir yerden ulu’sun!
Eski, yeni, tatlı, yanık sesler ile dolusun!
Sevgi, gençlik, istek, sağlık fedâ olsun yolunda”
[Uçman: 2023, s.26].

## Nəticə / *Conclusion*

Məqalədə Yurdaqulun Türk kimliyinə və Turan idealına olan münasibəti, yaşadığı dövr və yazdığı əsərlər tədqiq edildikdən sonra belə nəticəyə gəldik ki, onun tək qayəsi türk irqini herşeydən uca tutmaq idi.

76 yaşında vəfat edən şair 1891-1939-cu illər arasında 48 il ərzində yazmış olduğu böyük və kiçik həcimli əsərlərini iyirmiyə yaxın kitabda toplamışdır. Şeirlərində daima təkrarlanan düşüncə "türkün hərşeyi gözəldir və hərşeydən gözəldir" ifadəsi idi.

Bütün ömrü boyu qələmini xalqının xeyrinə istifadə edən şair, sadə dil və heca ölçüsü ilə yazdığı şeirlərində daima milli şuur düşüncəsini təqib etmişdir. O, daima millətini şeirlərində ucaldır, onun özünə inam qazanmasını təşviq edirdi. Ona görədə dilinin sadə olması və mövzu zənginliyi baxımından türk ədəbiyatı tarixində vacib yerə sahibdir.

M.Əmin ən üstün millətin türk olduğunu və bizim yalnız və yalnız onu sevməmizin lazım olduğunu bir çox şeirlərində özünə məxsus misralarla səsləndirirdi.

Heç şübhəsiz Yurdaqulun dəyəri şeirlərinin hecalarında deyil, oynadığın tarixi roldadır. Şairin qiyməti şeirlərindəki üslub xüsusiyyətləri ilə deyil, türklük ideologiyasında axtarılmalıdır. O, osmanlılıq və müsəlmançılıq fikri yerinə türklük şüurunu yaratdı. Buna görə də müəyyən şəxslərin deyil, bütün türk irqinin şairi olduğunu qənaətinə gəldik.

## Ədəbiyyat / *References*


1. Acar D. (2018). *M. Emin Yurdakul'un şiirlerinde sosyal ve siyasi meseleler*: Yüksek lisans tezi. Marmara Üniversitesi. https://tez.yok.gov.tr/ [istinad tarixi: 07.04.2026]
2. Baltacıoğlu İ. *"Mehmed Emin Yurdakul ile konuştum"* / Yeni Adam dergisi, №452, İstanbul: 1943, s. 6–11.
3. Banarlı N.S. (1977). *Resimli Türk edebiyatı (II cild)*. İstanbul: Devlet Kitapları Yayınları.
4. Eraslan E. "M. E. Yurdakul". https://canakkalesavaslariansiklopedisi.com/content/mehmet-emin-yurdakul [istinad tarixi: 11.04.2026]
5. Gökalp Z. (1990). *Türkçülüğün esasları. İstanbul: Milli Eğitim Bakanlığı Yayınları.*
6. Gülendam R. (2011). *Tanzimat'tan bugüne yeni Türk edebiyatı: Şiir çözümlemeleri.* İstanbul: Kesit Yayınları.
7. Tuncer H. (1994). *Mehmet Emin Yurdakul'un şiirleri üzerine bir inceleme*. Ankara: Kültür Bakanlığı Yayınları.
8. Hasan K., Fatih K. (2007). *M. Emin Yurdakul: Türkçe şiirler*. İstanbul: Çağrı Yayınları.
9. Mehdiyeva G. (2016). *M. Emin Yurdakul'un şiirlerinde değerler eğitimi üzerine bir inceleme*: Yüksek lisans tezi. Dokuz Eylül Üniversitesi. https://tez.yok.gov.tr/ [istinad tarixi: 11.04.2026]
10. Şenal A. (2019). *M. Emin Yurdakul şiirleri üzerine söylem çözümlemesi*: Yüksek lisans tezi. Pamukkale Üniversitesi. https://tez.yok.gov.tr/ [istinad tarixi: 07.04.2026]
11. Tevetoğlu F. (1988). M. Emin Yurdakul: Hayatı ve eserleri. Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları.
12. Uçman A. (2023*). M. Emin Yurdakul'un bütün şiirleri*. İstanbul: Ötüken Neşriyatı.
13. Uçman A. *"M. Emin Yurdakul".* https://islamansiklopedisi.org.tr/yurdakul-mehmet-emin [istinad tarixi: 02.04.2026]
14. Yurdakul M.E. (1979). Türk sazı. İstanbul: Atlas Kitabevi.